Rəvan Sığorta ASC nin 2014 cü il üzrə illik hesabatı

2.1.1

Emitentin təşkilati-hüquqi forması: ***Açıq Səhmdar Cəmiyyəti***

Tam adı: ***"Rəvan Sığorta" Açıq Səhmdar Cəmiyyəti***

Qısaldılmış adı: ***"Rəvan Sığorta" ASC***

Dövlət qeydiyyatının tarixi və nömrəsi: ***Sığorta fəaliyyətinin həyata keçirilməsinə dair Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən verilmiş 000271 saylı, 15 oktyabr 2009-cu il tarixli lisenziya***

2.1.2

Emitentin hüquqi ünvanı və olduğu yer: ***Bakı şəhəri, Fətəli xan Xoyski 104A***

2.1.3

Emitent fəaliyyət göstərdiyi müddətdə onun adında və təşkilati-hüquqi formasında dəyişikliklər haqqında məlumat:

- ***Emitent, "Star Alyans Sığorta Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti kimi 15 avqust 2008-ci il tarixdə Azərbayacan Respublikası Maliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır və ona sığorta fəaliyyətinin həyata keçirilməsi üçün 042484 saylı lisenziya verilmişdir.***
- ***"Star Alyans Sığorta Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti 21 avqust 2009-cu il tarixdə "Rəvan Sığorta"ASC-nə çevrilərək, Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhəri Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.***

2.1.4

Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar: ***Yoxdur***

2.1.5

Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, yaxud cəmiyyətin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti: ***Yoxdur***

2.1.6

Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı:

3 (üç) hüquqi şəxs:

1. ***"Nurgün Grup" MMM***

2. ***"Nurgün Motors" MMC***
3. ***"NBC Bank" ASC***

2.1.7

Emitentin nizamnamə kapitalının on faizi və daha artıq həcmdə səsli səhmlərə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı:

"Nurgün Grup" MMM – VÖEN 1400235291, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, Xətai prospekti 36; – 49,1013 %, 4 370 047,20 (dörd milyon üç yüz yetmiş min qırx yeddi manat 20 qəpik) manat, 107109 səhm

"Nurgün Motors" MMC – VÖEN 1400278021; Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, Xətai prospekti 36; – 42,3592 %, 3 770 001,60 (üç milyon yeddi yüz yetmiş min bir manat 60 qəpik) manat, 92402 səhm

2.1.8

Emitentin nizamnamə kapitalında payı on faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı):

"Sabah" İKF – VÖEN 1500273261, Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Heydər Əliyev prospekti 103A; – 45%, 675027 (altı yüz yetmiş beş min iyirmi yeddi) manat, 1.35 pay, əmlak şəklində

2.1.9

Səhmdar Cəmiyyəti olan emitentin səhm sahiblərinin reyestri qiymətli kağızlar bazarının peşəkar iştirakçısı tərəfindən aparıldığı halda reyestr saxlayıcı haqqında məlumat (adı, yerləşdiyi ünvan, qiymətli kağızlar bazarının peşəkar iştirakçısı fəaliyyətinin həyata keçirilməsi üçün ona verilmiş xüsusi razılığın (lisenziyanın) qeydiyyat nömrəsi, verilmə tarixi və qüvvədə olduğu müddət) və ya reyestrin emitent tərəfindən aparıldığı barədə qeyd:

"Milli Depozit Mərkəzi" QSC (Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Bül-Bül prospekti 19. Lisenziya: reyestrsaxlayıcı fəaliyyətin həyata keçirilməsi üçün 12 fevral 2010-cu il tarixdə 5 il müddətinə verilmiş 044824 saylı lisenziya ; 13 fevral 2015-ci il tarixdə 5 il müddətinə verilmiş 149 saylı lisenziya)

2.1.10.1

Emitentin səhmdarlarının (payçılarının) hesabat ili ərzində keçirilmiş yığıncağının keçirilmə tarixi və yeri: ***23 aprel 2014-cü il, Bakı şəhəri***

2.1.10.2

Emitentin səhmdarlarının (payçılarının) hesabat ili ərzində keçirilmiş yığıncağında qəbul edilmiş qərarlar:

- ***2013-cü ilin yekununa dair müstəqil auditor tərəfindən təsdiqlənmiş maliyyə hesabatı təsdiq edilsin .***

2.1.11.1

İnvestisiya qiymətli kağızın növü və forması: ***Adi sənədsiz adlı səhm***

2.1.11.2

Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi:

Emitentin Nizamnaməsinə aşağıdakı tarixlərdə və formalarda dəyişiklik edilərək, Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərinin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən təsdiqlənmişdir:

29 aprel 2010-cu il

Cəmiyyətin Nizamnamə kapitalı 3 000024 (üç milyon iyirmi dörd) manat həcmindədir və hər biri 30,60 (otuz manat 60 qəpik) manat olmaqla 98040 (doxsan səkkiz min qırx) ədəd adi sənədsiz adlı səhmdən ibarətdir.

24 oktyabr 2011-ci il

Cəmiyyətin Nizamnamə kapitalı 4 000032 (dörd milyon otuz iki manat) manat həcmindədir və hər biri 40,80 (qırx manat 80 qəpik) manat olmaqla 98040 (doxsan səkkiz min qırx) ədəd adi sənədsiz adlı səhmdən ibarətdir.

21 may 2014-cü il

Cəmiyyətin Nizamnamə kapitalı 8 900 071,20 (səkkiz milyon doqquz yüz min yetmiş bir manat 20 qəpik) manat həcmindədir və hər biri 40.8 manat olmaqla 218 139 ədəd sənədsiz adi adlı səhmdən ibarətdir.

2.1.11.3

İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri:

Miqdarı: ***218 139 (iki yüz on səkkiz min yüz otuz doqquz)***

Nominal dəyəri: ***40,80 (qırx manat 80 qəpik)***

2.1.11.4

İnvestisiya qiymətli kağızların məcmu nominal dəyəri:

Miqdarı: ***8 900 071,20 (səkkiz milyon doqquz yüz min yetmiş bir manat 20 qəpik)***

2.1.11.5

Hesabat ili ərzində emitet tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər: ***yoxdur***

2.1.11.6

Faizli istiqrazlar haqqında məlumat:

Qiymətli kağızın dövlət qeydiyyat nömrəsi AZ0104019432. Qiymətli kağızın nominal dəyəri 100 AZN ,sayı 3192 ədəd. İllik faiz gəlirliyi 2.87 %

2.1.11.7

İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjası:

"Bakı Fond Birjası" QSC, Bül-Bül prospekti 19.

2.1.12

Emitet tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqidlər: ***yoxdur.***

2.1.13

Hesabat dövrü ərzində emintentin maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən mühüm hadisələr və hərəkətlər haqqında məlumatlar, o cümlədən maliyyə vəziyyəti və maliyyə göstəricilərinin təsviri və onların əvvəlki ilin həmin dövrü üzrə müvafiq maliyyə göstəricilərlə müqayisəsi (qiymətli kağızları kütləvi təklif üsulu ilə yerləşdirilmiş və ya fond birjasının kotirovka vərəqələrinə daxil edilmiş emitentlər üçün):

2014 cü il ərzində aktivlərin məbləği 358114.69 manat artmış və 18780927.47 manat təşkil etmişdir.Kapital isə il ərzində 617094.61manat artaraq 12712537.3 manat olmuşdur

2013 və 2014 cü illərin maliyyə göstəriciləri və müqayisəli vəziyyəti 5, 6 və 7- ci səhifələrdə əlavə olunmuşdur.

2.1.15

Maliyyə hesabatlarının yoxlanılması haqqında kənar auditorun rəyi:

Hesabata əlavə olunur

2.1.16

İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi:

20 may 2015-ci il

2.1.17

İllik hesabatın açıqlanma mənbəyi haqqında məlumat:

"Rəvan Sığorta" ASC-in rəsmi saytı və kütləvi informasiya vasitələri.